# Azərbaycan Respublikası Prezidentinin Sərəncamları

2009-cu il

- Naxçıvan Muxtar Respublikasının sosial və iqtisadi inkişafında xidmətləri olan şəxslərin təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(3 avqust 2009-cu il)*
- E.R.Uçarın "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(3 avqust 2009-cu il)*
- T.Y.Rzayevin "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(3 avqust 2009-cu il.)*
- Naxçıvan Muxtar Respublikasının sosial və iqtisadi inkişafında xidmətləri olan şəxslərə fəxri adların verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(3 avqust 2009-cu il)*
- Qusar rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(27 avqust 2009-cu il)*
- Gəncə şəhərinin sosial-mədəni inkişafında xidmətləri olan şəxslərə fəxri adların verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(24 sentyabr 2009-cu il)*
- Tovuz rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(7 oktyabr 2009-cu il)*
- Mingəçevir şəhərində "kür" olimpiya tədris idman mərkəzinin yenidən qurulması ilə əlaqədar əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(3 noyabr 2009-cu il)*
- Sumqayıt şəhərinin sosial-iqtisadi inkişafında xidmətləri olan şəxslərin təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(16 noyabr 2009-cu il)*
- Sumqayıt şəhərinin sosial-iqtisadi inkişafında xidmətləri olan şəxslərə fəxri adların verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(16 noyabr 2009-cu il)*
- Ağsu rayonunda əhalinin içməli su ilə təminatının daha da yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(23 noyabr 2009-cu il)*
- İsmayıllı rayonunda əhalinin içməli su ilə təminatının daha da yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(23 noyabr 2009-cu il)*
- Akademik Həsən Əliyev adına Azərbaycan Respublikasının Ordubad Milli Parkı haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(25 noyabr 2009-cu il)*
- Ağdam rayonunda əhalinin səhiyyə xidməti ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(25 noyabr 2009-cu il)*

- Şamaxı şəhərindəki cümə məscidi dövlət tarix-memarlıq abidəsinin bərpası ilə əlaqədar tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(24 dekabr 2009-cu il)*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ SOSİAL VƏ İQTİSADİ İNKİŞAFINDA XİDMƏTLƏRİ OLAN ŞƏXSLƏRİN TƏLTİF EDİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Naxçıvan Muxtar Respublikasının sosial və iqtisadi inkişafında böyük xidmətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**“Şərəf” ordeni ilə**
Həbibbəyli İsa Əkbər oğlu

**“Şöhrət” ordeni ilə**
Vəliyev Sadıq Hüseynəli oğlu

**“Tərəqqi” medalı ilə**
Abbasov Vüqar Zakir oğlu
Abdullayev İsa Əli oğlu
Hacızadə Xuraman Abdulla qızı
Hümbətov Rəsul Həsən oğlu
Xəlilova Əsmər Həmid qızı
Qədirzadə Hacıqadir İbrahim oğlu
Mustafayev Hacıəkbər Abbas oğlu

**“Vətən uğrunda” medalı ilə**
Əliyev Rasim Məmmədəli oğlu

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 avqust 2009-cu il.

# E.R.UÇARIN "AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏXRİ DİPLOMU" İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişafında xidmətlərinə görə Emin Rəsul oğlu Uçar "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 avqust 2009-cu il.

# T.Y.RZAYEVİN "AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏXRİ DİPLOMU" İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişafında xidmətlərinə görə Teymur Yaqub oğlu Rzayev "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 avqust 2009-cu il.

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ SOSİAL VƏ İQTİSADİ İNKİŞAFINDA XİDMƏTLƏRİ OLAN ŞƏXSLƏRƏ FƏXRİ ADLARIN VERİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Naxçıvan Muxtar Respublikasının sosial və iqtisadi inkişafında xidmətləri olan şəxslərə aşağıdakı fəxri adlar verilsin:

**“Azərbaycan Respublikasının xalq artisti”**
Axundov Çingiz Məmməd oğlu

**“Azərbaycan Respublikasının əməkdar elm xadimi”**
Hacıyev İsmayıl Muxtar oğlu
Talıbov Tariyel Hüseynəli oğlu

**“Azərbaycan Respublikasının əməkdar müəllimi”**
Camalov Kamal Həsən oğlu
Quliyev Əbülfəz Aman oğlu
Nəcəfova Zərifə Əli qızı
Rzayev Məmməd Hüseyn oğlu

**“Azərbaycan Respublikasının əməkdar həkimi”**
Rəhimov Rəhim Nəcəf oğlu

**“Azərbaycan Respublikasının əməkdar rəssamı”**
Həmzəyeva Ülviyyə Tapdıq qızı

**“Azərbaycan Respublikasının əməkdar mühəndisi”**
Mustafayev Nemət Nəriman oğlu

**“Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi”**
Babayev Yusif İmran oğlu

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 avqust 2009-cu il.

# QUSAR RAYONUNUN SOSİAL-İQTİSADİ İNKİŞAFININ SÜRƏTLƏNDİRİLMƏSİNƏ DAİR ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Son illər Qusar rayonunun sosial-iqtisadi inkişafı, turizm, yol və digər infrastruktur layihələrinin həyata keçirilməsi sahəsində bir sıra mühüm işlər görülmüşdür. Bu istiqamətdə görülən tədbirlərin daha da sürətləndirilməsi, o cümlədən 16 min nəfərə yaxın sakini olan 27 kəndi birləşdirən Samur-Həzrə yolunun yenidən qurulması məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının 2009-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Samur-Həzrə yolunun yenidən qurulması məqsədi ilə Qusar rayon İcra Hakimiyyətinə 6,5 milyon (altı milyon beş yüz min) manat məbləğində vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci bəndində nəzərdə tutulan vəsaitin ödənilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 27 avqust 2009-cu il.

# GƏNCƏ ŞƏHƏRİNİN SOSİAL-MƏDƏNİ İNKİŞAFINDA XİDMƏTLƏRİ OLAN ŞƏXSLƏRƏ FƏXRİ ADLARIN VERİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Gəncə şəhərinin sosial-mədəni inkişafında xidmətləri olan aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**“Azərbaycan Respublikasının əməkdar müəllimi”**
Dəmirova Qızdarxan Hüseyn qızı
Əliyev Mübariz Müseyib oğlu

**“Azərbaycan Respublikasının əməkdar həkimi”**
Abdurəhmanov Sərvər Həsən oğlu

**“Azərbaycan Respublikasının əməkdar artisti”**
Omarov Afiser Qara oğlu

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 24 sentyabr 2009-cu il.

# TOVUZ RAYONUNUN SOSİAL-İQTİSADİ İNKİŞAFININ SÜRƏTLƏNDİRİLMƏSİNƏ DAİR ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Son illər Tovuz rayonunun sosial-iqtisadi inkişafı, yol və digər infrastruktur layihələrinin həyata keçirilməsi sahəsində bir sıra mühüm işlər görülmüşdür. Bu istiqamətdə görülən tədbirlərin daha da sürətləndirilməsi, bütövlükdə 21 min nəfər əhalinin yaşadığı 43 yaşayış məntəqəsini, o cümlədən, Ermənistan Respublikası ilə sərhəddə yerləşən 19 dağ kəndini rayon mərkəzi ilə birləşdirən, xüsusi strateji əhəmiyyətə malik olan Tovuz-Böyük Qışlaq-Qaralar avtomobil yolunun yenidənqurulması məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının 2009-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Tovuz-Böyük Qışlaq-Qaralar avtomobil yolunun yenidənqurulması məqsədi ilə Tovuz rayon İcra Hakimiyyətinə ilkin olaraq 5 milyon (beş milyon) manat məbləğində vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci bəndində nəzərdə tutulmuş vəsaitin maliyyələşdirilməsini müəyyən olunmuş qaydada həyata keçirsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 7 oktyabr 2009-cu il.

## MİNGƏÇEVİR ŞƏHƏRİNDƏ "KÜR" OLİMPİYA TƏDRİS İDMAN MƏRKƏZİNİN YENİDƏN QURULMASI İLƏ ƏLAQƏDAR ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı proqramlarının icrası çərçivəsində ölkəmizin şəhər və rayonlarında bədən tərbiyəsi və idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində tədbirlər uğurla həyata keçirilir.

Mingəçevir şəhərində "Kür" Olimpiya Tədris İdman Mərkəzinin yenidən qurulması ilə əlaqədar işlərin sürətləndirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Mingəçevir şəhərində "Kür" Olimpiya Tədris İdman Mərkəzinin yenidən qurulması işlərinin sürətləndirilməsi üçün Azərbaycan Respublikasının 2009-cu ilin dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə 3,0 (üç) milyon manat məbləğində vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci bəndində nəzərdə tutulmuş vəsaitin maliyyələşdirilməsini müəyyən olunmuş qaydada həyata keçirsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 noyabr 2009-cu il.

# SUMQAYIT ŞƏHƏRİNİN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA XİDMƏTLƏRİ OLAN ŞƏXSLƏRİN TƏLTİF EDİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Sumqayıt şəhərinin 60 illiyi münasibətilə şəhərin sosial-iqtisadi inkişafında xidmətləri olan aşağıdakı şəxslər təltif edilsinlər:

**"Şöhrət" ordeni ilə**
Babayeva Ofelya Hacıməmməd qızı
Əhmədov Xəndan Mürsəl oğlu
İsmayılov Eldar Vəkil oğlu
Məmmədov Təvəkgül Yaqub oğlu
Nəcəfov Əli Məmməd oğlu
Qəhrəmanov Vaqif İmran oğlu

**"Tərəqqi" medalı ilə**
Abbasov Müzakir İsmayıl oğlu
Abdullayev Rafiq Əkbər oğlu
Abdullayeva Leyla Arif qızı
Ağamirzəyeva Zoya Seyidovna
Allahverdiyev Orucəli Şahvəli oğlu
Balıyev Teymur Hüseynxan oğlu
Bayramov Qorxmaz Kərim oğlu
Bəşirov Mübariz Telman oğlu
Dünyamalıyev Qadir Əziz oğlu
Əhmədov Rəhimdil Qılınc oğlu
Əhmədova Yeganə Əhmədiyə qızı
Əliyev Şəfa Tiflis oğlu
Əsədov Müşviq Nadir oğlu
Əsədov Səfdər Azay oğlu
Əsgərov Akif Səfərxan oğlu
Əzimov Əzim Əliheydər oğlu
Fərzəliyeva Rəna Zeynalabdin qızı
Feyziyeva Xanımqız İbadulla qızı
Hacıyeva Lalə Zülfi qızı
Həsənov İlyas Şamil oğlu
Həsənov Şakir Rəfi oğlu
İbrahimova Ofeliya Əhməd qızı
İmaməliyev Asif Ağalar oğlu
İsmiyev Cümşüd Rüstəm oğlu
Mahmudov Nəriman Fərman oğlu
Məhərrəmov Möhübbət Fərman oğlu
Məhərrəmova Mətanət Kamal qızı
Məlikov Qüdrət Balakişi oğlu
Mirzəyeva Tamara Mirzəbala qızı
Nuriyeva Gözəl Əli qızı

Piriyeva Mehriban Camal qızı
Qasımov Əlfüqar Zülfüqar oğlu
Quliyeva Gülnarə Knyaz qızı
Quliyeva Qətibə Vəli qızı
Rzayev Nəsir Yasər oğlu
Sadıxov Rauf İzzət oğlu
Şəmilov Yaşar Cəlal oğlu
Şükürov Əlöysət Sevindik oğlu
Süleymanova Adilə Mürsəl qızı
Zamanov Elçin Cəmil oğlu
Zülfüqarlı Aygün Raqif qızı

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 16 noyabr 2009-cu il.

## SUMQAYIT ŞƏHƏRİNİN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA XİDMƏTLƏRİ OLAN ŞƏXSLƏRƏ FƏXRİ ADLARIN VERİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Sumqayıt şəhərinin 60 illiyi münasibətilə şəhərin sosial-iqtisadi inkişafında xidmətləri olan aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar İncəsənət Xadimi"**
Nəzirov Vaqif Osman oğlu

**"Əməkdar Mühəndis"**
Dəmirov Rafik Balaməmməd oğlu
Əmirov Əli Mənsimalı oğlu
Quliyev Təbrik Müzəffər oğlu

**"Əməkdar Müəllim"**
Əliyev Zakir Sahib oğlu
Əsgərova Nazilə Xotkar qızı
Köçərli Şəhniyar Əli oğlu

**"Əməkdar Həkim"**
Babayev Sehri Fərəc oğlu
Tağıyev Mail Bağı oğlu

**"Əməkdar Mədəniyyət İşçisi"**
Müfid Zadə Lətafət Həmid qızı
Şəfiyev Əşrəf Cavad oğlu

**"Əməkdar Jurnalist"**
Məmmədov Eyruz Surxay oğlu
Tapdıqov Ramiz Əsgər oğlu

**İlham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 16 noyabr 2009-cu il.

# AĞSU RAYONUNDA ƏHALİNİN İÇMƏLİ SU İLƏ TƏMİNATININ DAHA DA YAXŞILAŞDIRILMASINA DAİR ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Ağsu rayonunun sosial-iqtisadi inkişafı, genişmiqyaslı yenidənqurma və abadlıq işlərinin aparılması sahəsində son illər bir sıra mühüm tədbirlər həyata keçirilmişdir. Bu istiqamətdə işlərin davam etdirilməsi, o cümlədən əhalinin içməli su ilə təminatının daha da yaxşılaşdırılması üçün rayonun dağlıq ərazisindəki mənbələrdən Ağsu şəhərinə 25 km uzunluğunda içməli su kəmərinin çəkilməsi və digər zəruri tədbirlərin görülməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının 2009-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Ağsu rayon İcra Hakimiyyətinə 3,7 milyon (üç milyon yeddi yüz min) manat məbləğində vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci bəndində nəzərdə tutulmuş vəsaitin maliyyələşdirilməsini müəyyən olunmuş qaydada həyata keçirsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 23 noyabr 2009-cu il.

# İSMAYILLI RAYONUNDA ƏHALİNİN İÇMƏLİ SU İLƏ TƏMİNATININ DAHA DA YAXŞILAŞDIRILMASINA DAİR ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Son illər İsmayıllı rayonunun sosial-iqtisadi inkişafı, əhalini narahat edən problemlərin həlli və infrastruktur layihələrinin yerinə yetirilməsi sahəsində bir sıra mühüm işlər görülmüşdür. Bu sahədə fəaliyyətin davam etdirilməsi, 8000 nəfərə qədər əhalinin yaşadığı İvanovka, Uştal, Qalagah, Soltankənd, Hacıhətəmli, Ruşan və Vəng kəndlərinin içməli su ilə təminatının daha da yaxşılaşdırılması üçün Göyçay çayından 35 km uzunluğunda su kəmərinin çəkilməsi və digər zəruri tədbirlərin həyata keçirilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının 2009-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan İsmayıllı rayon İcra Hakimiyyətinə 3,5 milyon (üç milyon beş yüz min) manat məbləğində vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci bəndində nəzərdə tutulmuş vəsaitin maliyyələşdirilməsini müəyyən olunmuş qaydada həyata keçirsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 23 noyabr 2009-cu il.

# AKADEMİK HƏSƏN ƏLİYEV ADINA AZƏRBAYCAN RESPUBLİKASININ ORDUBAD MİLLİ PARKI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Ətraf mühitin mühafizəsi, ondan səmərəli istifadə edilməsi, nadir və nəsli kəsilməkdə olan bitki və heyvan növlərinin qorunub saxlanılması, Azərbaycan Respublikasının xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsinin inkişaf etdirilməsi məqsədi ilə və "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci və 21-ci maddələrini rəhbər tutaraq qərara alıram:

1. Akademik Həsən Əliyev adına Azərbaycan Respublikasının Ordubad Milli Parkının ərazisi Azərbaycan Respublikasının Şahbuz Dövlət Təbiət Qoruğu (3139,0 hektar), habelə Naxçıvan Muxtar Respublikasının Culfa, Ordubad rayonlarının inzibati ərazilərində olan dövlət meşə fondu (396,4 hektar) və Şahbuz, Culfa, Ordubad rayonlarının inzibati ərazilərində yerləşən yay otlaqlarının (27131,0 hektar) torpaqları hesabına əlavə olunan xəritədə göstərilmiş cəmi 30666,4 hektar genişləndirilsin.

2. Akademik Həsən Əliyev adına Azərbaycan Respublikasının Ordubad Milli Parkı Akademik Həsən Əliyev adına Azərbaycan Respublikasının Zəngəzur Milli Parkı adlandırılsın.

3. "Azərbaycan Respublikasının Şahbuz Dövlət Təbiət Qoruğunun və Ordubad Milli Parkının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 16 iyun tarixli 1249 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, №6, maddə 312) 1-ci bəndi qüvvədən düşmüş hesab edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinə tapşırılsın ki, üç ay müddətində:

4.1. qüvvədə olan normativ hüquqi aktların bu Sərəncama uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 25 noyabr 2009-cu il.

# AĞDAM RAYONUNDA ƏHALİNİN SƏHİYYƏ XİDMƏTİ İLƏ TƏMİNATININ YAXŞILAŞDIRILMASINA DAİR ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Son illər Ağdam rayonunun işğal altında olmayan və 86 min nəfərə qədər əhalinin məskunlaşdığı yaşayış məntəqələrində tikinti, abadlıq-quruculuq işləri genişlənmiş, müxtəlif Dövlət Proqramları çərçivəsində yeni qəsəbələrin salınması, infrastruktur layihələrinin həyata keçirilməsi nəticəsində məcburi köçkünlərin yaşayış şəraiti yaxşılaşmış, bir çox sosial problemlər öz həllini tapmışdır.

Sosial məsələlərin həlli istiqamətində tədbirlərin davam etdirilməsi, o cümlədən əhaliyə göstərilən səhiyyə xidmətinin daha da yaxşılaşdırılması üçün Ağdam rayonunun Quzanlı qəsəbəsində yeni uşaq xəstəxanası və doğum evinin tikilməsi məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının 2009-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Ağdam rayonunun Quzanlı qəsəbəsində yeni uşaq xəstəxanasının və doğum evinin tikilməsi məqsədi ilə Ağdam rayon İcra Hakimiyyətinə ilkin olaraq 1,0 (bir) milyon manat məbləğində vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci bəndində nəzərdə tutulmuş vəsaitin maliyyələşdirilməsini müəyyən olunmuş qaydada həyata keçirsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 25 noyabr 2009-cu il.

# ŞAMAXI ŞƏHƏRİNDƏKİ CÜMƏ MƏSCİDİ DÖVLƏT TARİX-MEMARLIQ ABİDƏSİNİN BƏRPASI İLƏ ƏLAQƏDAR TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan xalqının tarixi-mədəniyyət abidələrindən sayılan Şamaxı şəhərindəki Cümə məscidi 743-cü ildə inşa edilmiş və təkcə Cənubi Qafqazda deyil, həm də Yaxın Şərqdə ən qədim müsəlman məbədlərindən biri kimi tanınaraq zəmanəmizə qədər gəlib çatmışdır. Memarlıq üslubu baxımından qədimliyi və orijinallığı ilə seçilən Cümə məscidi bütün dövrlərdə əhali arasında müqəddəs ibadət yeri kimi yüksək ehtiram və diqqətlə qorunub saxlanılmışdır. Şamaxıda 1859-cu və 1902-ci illərdə baş vermiş dəhşətli zəlzələlərdən ciddi ziyan çəkən məscid XX əsrin əvvəllərində yenidən bərpa edilmişdir. Lakin 1918-ci ildə Azərbaycanın əksər şəhərləri və bölgələrində, o cümlədən Şamaxıda erməni-daşnak quldur dəstələri tərəfindən törədilən soyqırım zamanı minlərlə günahsız insan qətlə yetirilmiş, əhalinin sığınacaq tapdığı Cümə məscidi isə yandırılmışdır. Uzun illər dağıdılmış vəziyyətdə qalan bu tarixi abidə 1980-ci ildə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin tapşırığı ilə təmir olunmuşdur.

Şamaxı şəhərindəki Cümə məscidi Dövlət tarix-memarlıq abidəsinin Azərbaycanın çoxəsrlik milli memarlıq irsi ənənələrinə uyğun şəkildə təmiri və bərpası məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının 2009-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Şamaxı şəhərindəki Cümə məscidi Dövlət tarix-memarlıq abidəsinin bərpası üçün Şamaxı Rayon İcra Hakimiyyətinə 4,0 (dörd) milyon manat məbləğində vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci bəndində nəzərdə tutulmuş vəsaitin maliyyələşdirilməsini müəyyən olunmuş qaydada həyata keçirsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 24 dekabr 2009-cu il.